6 avqust 2021-ci il
№29 (8937)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*



# Müəllimlər daim öz biliklərini artırmalıdırlar

## Prezident İlham Əliyevin 2019-cu il noyabrın 26-da Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdəki nitqindən

Müəllim peşəsi çox şərəfli, məsuliyyətli, çox ağır peşədir. Müəllim hər zaman tələbə qarşısında öz biliyini göstərməlidir. Tələbələr də indi hər şeyi görürlər, hər şeyi seçə bilirlər. Ona görə müəllimlər daim öz biliklərini artırmalıdırlar. Mən deyim ki, biz müasir dövrdə köhnə baqajla yaşaya bilmərik. Ona görə indi internet dövrüdür, hər bir məlumatı əldə etmək üçün imkanlar var. Daim müəllimlər yeniliklərə baxsınlar, onların peşəsində hansı proseslər gedir, dünyada hansı proseslər gedir, texnoloji inkişaf nədən ibarətdir ki, tələbələrə keyfiyyətli biliklər versinlər. Ona görə müəllim peşəsi şərəflidir, hörmətlidir, ancaq, eyni zamanda, müəllimlər də daim öz üzərlərində işləməlidirlər.



**Məktəblilərimizin növbəti 4 medal sevinci**

➩ səh.2



**Test imtahanları yekunlaşdı, vakansiya seçimi başladı**

➩ səh.4



**Biz torpaqlarımıza qayıtdıq!**

➩ səh.8

# 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində zərər vurulmuş təhsil müəssisələrində təmir-tikinti işlərinin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində dəymiş ziyanın aradan qaldırılması ilə bağlı Gəncə şəhəri, Ağdam, Goranboy və Tərtər rayonlarında zərər vurulmuş təhsil müəssisələrində təmir-tikinti işlərinin həyata keçirilməsinin təmin edilməsi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 7,0 (yeddi) milyon manat vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 4 avqust 2021-ci il*

# Azərbaycan “qara qızılı” insan kapitalına çevirməyi bacaran ölkədir



## “Yüksəliş” müsabiqəsinin qaliblərinə

Əziz dostlar,

Sizi - intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunan “Yüksəliş” müsabiqəsinin qaliblərini səmimi qəlbdən təbrik edirəm.

Müasir dövrdə hər bir fəaliyyət sahəsində yeni ideya və baxışlar tələb edilməklə yanaşı, elmi biliklərə əsaslanan bacarıq və vərdişlərə malik kadr ehtiyatlarının mövcudluğu vacib şərtlərdən biridir. Danılmaz həqiqətdir ki, peşəkar insan ehtiyatı hər bir ölkənin sərvəti hesab olunur.

İnsan kapitalının inkişaf etdirilməsi bizim üçün həmişə ciddi qəbul edilən prioritet məsələ olmuş və olmaqda davam edir. Ölkəmizdə yüksək intellektə malik insan kapitalının formalaşması və inkişafına, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsinə, müxtəlif sahələrdə qazanılmış qabaqcıl dünya təcrübəsini tətbiq edərək onun potensialının üzə çıxarılmasına hər zaman xüsusi diqqət yetirilib.

Azərbaycan son illər ərzində bir çox uğurlara imza atıb, qələbələr qazanıb. Azərbaycan “qara qızılı” insan kapitalına çevirməyi bacaran ölkədir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatına əsasən, bir çox göstəricilərə görə Azərbaycan dünya miqyasında ön sıralardadır. Ölkəmiz regionda həyata keçirilən bir sıra mühüm layihələrin təşəbbüskarı və iştirakçısıdır. Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı Zəfər müasir tariximizin ən parlaq səhifələrini təşkil edir. Sözsüz ki, bütün bu uğur və qələbələrə biz xalqımızın zəngin insan potensialına arxalanaraq nail ola bilmişik.

Əziz dostlar,

“Yüksəliş” müsabiqəsi zamanın çağırışlarına cavab olaraq kadr ehtiyatının zənginləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində atılmış mühüm addımlardandır. Əminəm ki, dövlətimizin daimi diqqət və qayğısı ilə siz tükənməz enerji ilə çalışaraq müstəqil Azərbaycanın inkişafı naminə hər zaman öz töhfələrinizi verəcəksiniz. Sizi bir daha təbrik edir, hər birinizə möhkəm cansağlığı və yeni-yeni nailiyyətlər arzulayıram.

**Mehriban ƏLİYEVA,**
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti*

# “Zəfər” düşərgəsi başa çatdı



İyulun 30-da Təhsil Nazirliyi və “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə Quba STEAM Mərkəzində keçirilən “Zəfər” düşərgəsinin bağlanış mərasimi baş tutub.

Mərasim Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edən Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının (AGMA) rəhbəri Rüfət Əsədzadə və “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova iştirakçıların düşərgə çərçivəsində faydalı biliklərə yiyələndiklərini vurğulayıblar və onlara uğurlar arzulayıblar.

Daha sonra düşərgə iştirakçılarına sertifikatlar təqdim olunub.

Mərasimdə Bakı Dövlət Sirkinin bədii heyəti uşaqlar üçün əyləncəli proqramla çıxış ediblər.

Mərasim konsert proqramı ilə davam etdirilib.

Qeyd edək ki, iyulun 25-dən start verilən “Zəfər” düşərgəsinə 74 şəhid övladı qatılıb. İştirakçılar bu müddət ərzində STEAM Mərkəzində faydalı və müasir biliklərə yiyələnərək əyləncəli vaxt keçiriblər.

# Məktəblilərimizin növbəti 4 medal sevinci

## 53-cü Beynəlxalq Kimya Olimpiadasında uğurlu nəticə



25 iyul - 2 avqust 2021-ci il tarixlərində onlayn formatda məktəblilərin 53-cü Beynəlxalq Kimya Olimpiadası (IChO) keçirilib. 79 ölkədən 312 məktəblinin qatıldığı olimpiadada ölkəmiz 4 məktəbli ilə təmsil olunub. Olimpiadada Azərbaycan məktəbliləri növbəti uğura imza atıblar.

Belə ki, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin XI sinif şagirdi Xanım Yaqublu, Təhsil Nazirliyinin birbaşa tabeliyində olan Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin X sinif şagirdi Məhsəti Piriyeva, Astara rayonu Pensər kənd Z.Ə.Əhmədzadə adına 2 nömrəli məktəb-liseyin X sinif şagirdi Salman Hüseynov və BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin X sinif şagirdi Nəriman Şirinli bürünc medala layiq görülüb.

Məktəblilərimizi təbrik edir və yeni nailiyyətlər arzulayırıq!

# “Məktəblinin dostları” üçün maarifləndirici təlimlər

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nəzdində fəaliyyət göstərən Təlimə Dəstək Mərkəzi (TDM) tərəfindən “Məktəblinin dostları” üçün maarifləndirici təlimlərə start verilib.

Təlimlərin əsas məqsədi “Məktəblinin dostları”na uşaqlarda yaranan müxtəlif davranış problemlərinin həlli üçün çıxış yolları tapmaqda istiqamət vermək və qarşılıqlı münasibətlərdə psixoloji dayanıqlılığı artırmaqdan ibarətdir.

“Uşaq və yeniyetmə psixologiyası”, “Uşaq və yeniyetmələrin yaş böhranları”, “Böhran dövründə qarşılaşdıqları problemlər”, “Uşaqlarda güvən hissini necə formalaşdırmalı?”, “Onlarla doğru ünsiyyət qurmanın yolları” mövzularını əhatə edən təlimlərdə 70-ə yaxın “Məktəblinin dostu” iştirak edir.

TDM-in Məktəb mühiti və psixoloji xidmətin təşkili bölməsinin müdiri Səidə Əhmədova tərəfindən gün ərzində 4 saat olmaqla təşkil olunan təlimlərdə mövzulara uyğun praktik məşğələlər keçirilir, müvafiq söhbətlər aparılır, onlara tövsiyələr verilir.

Həmçinin təlimlərdə mövzular ətrafında fikir mübadiləsi aparılır, iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilir.

# Təhsil naziri Pakistan Milli Assambleyasının sədri ilə görüşüb

**İyulun 30-da təhsil naziri Emin Əmrullayev Pakistan İslam Respublikasının Milli Assambleyasının sədri Əsəd Qeysərin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

**Görüşdə Azərbaycan və Pakistan arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti, həmçinin mümkün əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsi aparılıb.**



# Məzmun islahatları ilə bağlı beynəlxalq təcrübə öyrənilir

## Təhsil İnstitutu Sinqapur şirkətləri ilə əlaqələri genişləndirir



**Mənsur MƏHƏRRƏMOV,**

*ARTİ-nin Təhsil standartları və proqramları şöbəsinin müdiri*

Azərbaycanda riyaziyyat və təbiət fənləri üzrə təhsil proqramının və ümumi təhsil müəssisələrində istifadə edilən dərsliklərin müasirliyini, həmçinin rəqabətliliyini təmin etmək məqsədilə Təhsil Nazirliyi Sinqapurun Marşal Kavendiş İnstitutu və Alston Nəşriyyat evi ilə uzunmüddətli əməkdaşlığı davam etdirir. Təhsil sahəsində qabaqcıl təcrübəsi olan Sinqapurun təhsil şirkətləri ilə həyata keçirilən bu layihələrin icraçısı Azərbaycan Respublikasının Təhsil İnstitutudur (ARTİ).

Son illərdə təhsildə uğurlu islahatlar aparan ölkələr arasında Sinqapur özünəməxsus yerə sahibdir. Bu ölkə keçən əsrin son dördddə bir hissəsindən etibarən atdıqları düzgün və qərarlı addımlarla təhsil sahəsində ciddi irəliləyişə nail olmuşdur. Bu da beynəlxalq qiymətləndirmə tədqiqatlarında öz əksini tapmışdır. Belə ki, son illər bu nailiyyət cədvəlinə Sinqapur liderlik edir. Ona görə də Sinqapurun keçdiyi bu yolu yaxından analiz, təcrübələrini mütəxəssisləri ilə təhlil etmək və Azərbaycanda davam edən islahatlar zamanı bu təcrübələri diqqətə almaq məqsədi ilə əməkdaşlıq üçün bu ölkənin təhsil şirkətləri seçilmişdir.

Qeyd etmək lazımdır ki, nəşrləri sadəcə Sinqapurda deyil, dünyanın bir çox ölkəsində istifadə olunan Marşal Kavendiş İnstitutu ilə keçirilən layihənin ilk mərhələsi başa çatmışdır. Belə ki, V-IX siniflər üçün Riyaziyyat fənni üzrə mövcud təhsil proqramları və dərslik komplektləri təhlil edilmiş, boşluqlar və ehtiyaclar müəyyənləşdirilmişdir. Bu məqsədlə ümumi təhsil məktəblərində riyaziyyat fənnini tədris edən müəllimlərdən ibarət ümumilikdə 3 fokus qrupu təşkil edilmişdir. Hər bir qrupda 8 müəllimin iştirak etdiyi bu fokus qruplar ölkəmizin paytaxt və müxtəlif regionlarının şəhər və kənd məktəblərini təmsil etdiyi üçün əldə olunan məlumatlar bu fənn üzrə milli səviyyədə olan çətinlikləri və boşluqları üzə çıxarmağa imkan yaratmışdır. Bundan əlavə, daha dolğun məlumatın alınması məqsədilə riyaziyyat fənni üzrə mövcud təhsil proqramlarının hazırlanmasında iştirak etmiş 6 mütəxəssisdən ibarət fokus qrup da təşkil edilmişdir. Fokus qrupları vasitəsilə alınmış məlumatlar beynəlxalq və yerli mütəxəssislərə riyaziyyat fənni üzrə kurikulum ilə bağlı mövcud ehtiyaclar haqda məlumatlanmağa kömək etmişdir.

Aparılmış təhlillərə əsaslanaraq, riyaziyyat fənni üzrə məzmun və dərslik komplektlərinin təkmilləşdirilməsi təhsil proqramları və tədris materiallarının təhlili metodları ilə bağlı 10 distant təlim keçirilmişdir. Beynəlxalq mütəxəssislər tərəfindən keçirilən bu təlimlərə təkmilləşdirmə prosesində iştirak edəcək əsas işçi qrupunun üzvləri ilə yanaşı Təhsil Nazirliyi, ARTİ, Dövlət İmtahan Mərkəzinin əməkdaşları və müstəqil nəşriyyat evlərindən olan mütəxəssislər də cəlb edilmişdir. Hər təlimdə iştirak edən mütəxəssislərin sayı 20-25 nəfər olmuşdur. Təlimlər ərzində yerli və beynəlxalq mütəxəssislər təhsil proqramları və dərslik komplektlərinin təkmilləşdirilməsi barəsində fikir mübadiləsi aparmış, bu sahədə Sinqapur və beynəlxalq təcrübə ilə yaxından tanış olmuşlar. Təlimlərdə nəzəri materialların müzakirəsi ilə bərabər praktik çalışmalar da yerinə yetirilmişdir. Belə ki, təhsil proqramlarının təhlili zamanı diqqət ediləcək məqamlar müzakirə olunduqdan sonra riyaziyyat fənninin mövcud təhsil proqramının müəyyən hissələri yerli mütəxəssislər tərəfindən təhlil edilmişdir. Sonra nümunəvi təhsil proqramının hazırlanması istiqamətində Marşel Kavendiş İnstitutunun ekspertləri öz təcrübələrini paylaşmış və yerli mütəxəssislər bu ekspertlərin konsultasiyası ilə praktik tapşırıqlar yerinə yetirmişlər. Eyni zamanda, dərsliklərin təhlili zamanı hansı meyarların əsas tutulmasına dair nəzəri və praktik məlumatlar bölüşülmüş, mövcud dərsliklərdən müəyyən hissələr birlikdə təhlil edilmiş, irad və təkliflər ortaya qoyulmuşdur.

Sinqapurun digər təhsil şirkəti olan Alston Nəşriyyat evi ilə əməkdaşlıq çərçivəsində isə 5-ci sinif təbiət fənninin təhsil proqramı və dərslik komplektinin hazırlanması üzrə layihə həyata keçirilir. Layihə çərçivəsində ilkin olaraq bu nəşriyyat evinin mütəxəssisləri təbiət fənləri üzrə kurikulumlarda boşluqlar və ehtiyaclara dair hesabat hazırlamışlar. Planlaşdırıldığı kimi 3 mərhələdən ibarət ümumilikdə 6 təlim keçirilmişdir. Təlimlərdə yalnız biologiya, coğrafiya, fizika və kimya fənləri üzrə mütəxəssislər deyil, o cümlədən ibtidai sinif müəllimləri və psixoloqlar iştirak etmişdir. Həmçinin, Təhsil Nazirliyi, ARTİ, Dövlət İmtahan Mərkəzinin əməkdaşları və müstəqil nəşriyyat evlərindən olan mütəxəssislər də bu təlimlərə cəlb edilmişdir. Hər təlimdə iştirak edən mütəxəssislərin sayı 25-30 nəfər olmuşdur.

Təlimlər zamanı Alston Nəşriyyat evinin mütəxəssisləri təbiət fənlərinə dair effektiv təlim nəticələrinin yazılması, standartların və onların məzmun xətlərinə uyğunluğunun təmin edilməsi, qiymətləndirmə meyarlarının müəyyənləşdirilməsi mövzularına dair nəzəri və praktik təcrübələr bölüşmüşdür. Sonra yerli şərait və beynəlxalq təcrübəyə əsaslanaraq azərbaycanlı mütəxəssislərdən ibarət əsas müəllif komandasının üzvləri I-IV siniflərin həyat bilgisi fənni üzrə təhsil proqramında yer alması nəzərdə tutulan təbiət fənləri ilə əlaqəli təlim nəticələrini və V sinif üçün nəzərdə tutulmuş təbiət fənni üzrə təlim nəticələrini hazırlamışdır. Bu hazırlıq prosesində Alston Nəşriyyat evinin mütəxəssislərinin məsləhətlərinə də müraciət edilmişdir. Təlim nəticələrinin əsasında əsas müəllif komandası Alston Nəşriyyat evinin mütəxəssislərinin konsultasiyası ilə V sinif təbiət fənni üzrə dərslik komplektinin manuskriptlərini də yazmışdır. Ümumilikdə, həm təlim nəticələrinin, həm də manuskriptlərin yazılmasında bu mütəxəssislər redaktor kimi iştirak etmişlər. V sinif üçün təbiət fənninin dərslik komplektinin yay aylarında tam hazır olması və 2021/2022-ci tədris ilində Bakıdan və respublikanın digər regionlarından ümumi təmsil prinsipini diqqətə alaraq seçilmiş 134 məktəbdə pilot olaraq tətbiqi planlaşdırılır. Hazırda dərslik komplekti üzərində redaktə və dizayn işləri davam etdirilir.

Qeyd etmək lazımdır ki, hər iki layihə çərçivəsində aparılmış müvafiq təhsil proqramları və dərslik komplektlərinin təhlili, o cümlədən riyaziyyat və təbiət fənləri üzrə dərslik komplektlərinin təkmilləşdirilməsi məqsədilə keçirilmiş təlimlər zamanı sadəcə Sinqapurun deyil, digər qabaqcıl ölkələrin də təhsil təcrübələri, xüsusən kurikulum, tədris resursları və qiymətləndirmə strategiyaları da araşdırılmış və müqayisəli təhlil aparılmışdır. Bütün bunlarla beynəlxalq təcrübənin birbaşa öyrənilməsinə və tətbiq olunmasına nail olunmuşdur.

Sinqapur nəşriyyat evləri ilə əməkdaşlıq çərçivəsində TIMSS, PISA kimi beynəlxalq qiymətləndirmə tədqiqatlarının tələbləri də yerli və beynəlxalq mütəxəssislər tərəfindən müzakirə edilmiş və bu tələblərin müvafiq təhsil proqramlarında və dərslik komplektlərində nəzərə alınması yollarına dair fikirlər irəli sürülmüşdür. Bunun isə öz növbəsində, yaxın gələcəkdə beynəlxalq qiymətləndirmələrdə ölkəmizin həm riyaziyyat, həm də təbiət elmləri üzrə nəticələrinin yüksəlməsinə müsbət təsir edəcəyi gözlənilir.

Yuxarıda qeyd edilənlərlə yanaşı, Sinqapurla əməkdaşlıq bir sıra digər müsbət nəticələrə malikdir. Belə ki, beynəlxalq mütəxəssislər tərəfindən keçirilmiş təlimlər və birgə çalışmalar sayəsində yerli mütəxəssislərin peşəkar inkişafı mövzusunda ciddi irəliləyişlər baş vermiş, ən müasir beynəlxalq standartlara uyğun təhsil proqramlarının və dərslik komplektlərinin hazırlanması sahəsində təcrübə qazanılmışdır. Bununla da, gələcəkdə oxşar təkmilləşdirmə prosesləri zamanı yerli kadrların potensialından istifadə üçün münbit şərait yaranmışdır. Beləcə, xarici təcrübənin birbaşa tətbiqi əvəzinə, həm yerli ənənələrə, həm də beynəlxalq standartlara uyğun, bir sözlə, milli, eyni zamanda, dünya ilə ayaqlaşan məhsulların hazırlanmasına nail olunacaqdır. Yerli şəraitə bələd, beynəlxalq təcrübə ilə tanış yerli kadrlarla məzmun islahatlarının aparılması daha da keyfiyyətli nəticələrin əldə edilməsinə gətirib çıxaracaqdır.

Sinqapurla əməkdaşlığın digər müsbət cəhəti yerli müəlliflərin peşəkar inkişafı ilə yanaşı, müvafiq fənn müəllimlərinin peşəkar inkişafı ilə də bağlıdır. Qeyd etmək lazımdır ki, bu sahədə də Sinqapur çox böyük nailliyyətə sahibdir. Müəllimlərin daim peşəkar inkişafını təmin etmək üçün hər bir müəllimi illik 100 saata yaxın təlimə cəlb etmələri görülən işlərdən sadəcə biridir. Sinqapurda müəllimlərin bu peşəkarlığa malik olmaları onların təhsil proqramlarından və dərsliklərdən daha effektiv istifadə etmələri ilə nəticələnir. Bunları diqqətə alaraq, hazırlanmış yeni təhsil proqramlarının və dərslik komplektlərinin effektiv istifadəsi və tətbiqi məqsədilə yerli mütəxəssislər tərəfindən müəllimlərin peşəkar inkişafı üçün bir sıra təlimlərin keçirilməsi planlaşdırılmışdır. Təlimlərin məzmununu və proqramını hazırlayarkən də Alston Nəşriyyat evinin bu sahədəki təcrübələrindən istifadə olunması və ARTİ-nin Təhsil işçilərinin peşəkar inkişafı mərkəzinin işçiləri tərəfindən həyata keçirilməsi nəzərdə tutulub.

# "Peşə təmayüllü siniflərin təşkili" layihəsinin hesabat tədbiri keçirilib



Avqustun 3-də "Peşə təmayüllü siniflərin təşkili" layihəsinin 2019-2020, 2020-2021-ci tədris illəri üzrə yekunlarına dair hesabat tədbiri keçirilib.

Tədbirdə təhsil nazirinin müavini İdris İsayev, Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Valeh Mirzalıyev, "Peşə təmayüllü siniflərin təşkili" layihəsinin idarə heyəti və müəllim-şagird kollektivi iştirak ediblər.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini İdris İsayev layihənin əhəmiyyətindən danışıb. İdris İsayev qeyd edib ki, ümumi orta təhsil səviyyəsində təhsilalanların ilkin peşələrlə tanışlığı, şagirdlərə peşə vərdişlərinin aşılanması onlara əmək bazarında asan iş tapmaqları istiqamətində çox faydalı olacaq.

Daha sonra layihənin əhatə dairəsi və növbəti hədəfləri haqqında məlumat verən layihə rəhbəri Xanım Şabanova bildirib ki, 2020-2021-ci tədris ilində "Peşə təmayüllü siniflərin təşkili" layihəsi paytaxt və bölgələrdə 35 məktəbdə 55 sinif olmaqla 1187 şagirdi əhatə edib. Növbəti tədris ilində isə hədəf layihə çərçivəsində təşkil edilən siniflərin sayının 80 məktəbdə 124 sinfə, şagirdlərin sayının isə minimum 2200-ə çatdırılmasından ibarətdir. Qeyd olunub ki, növbəti tədris ilində mövcud bəzi məktəblərdə paralel siniflərin açılması, həmçinin, yeni şəhər və rayonlar üzrə məktəblərin layihəyə qoşulması planlaşdırılır. Xanım Şabanova cari tədris ilindən etibarən peşə təmayüllü siniflərin şagirdlərinə sürücülük modulunun keçirilməsi, 20 məktəbdə STEAM layihəsinin inteqrasiyası və ölkədə ilk dəfə ümumi təhsil səviyyəsində təhsil alan şagirdlərə karyera məsləhətçiliyi xidmətinin baş tutması barədə də tədbir iştirakçılarını məlumatlandırıb.

Tədbir zamanı peşə təmayüllü siniflərin şagirdləri tərəfindən hazırlanmış əl işlərindən ibarət stend də nümayiş edilib.

Daha sonra tədris illəri ərzində layihə çərçivəsində görülən işlər barədə videoçarx izlənilib. Tədbir zamanı layihənin fəaliyyət göstərdiyi bir sıra məktəblərin direktor, müəllim və şagirdləri öz fikirlərini bölüşüblər.

## TKTA I yarımil üzrə hesabatını verdi

Təhsildə Keyfiyyət Təminatı Agentliyi cari ilin yanvar ayından iyul ayınadək fəaliyyət istiqamətləri üzrə altı aylıq hesabatı ictimaiyyətə təqdim edib.

Hesabatda I yarımil ərzində təhsil müəssisələrinin akkreditasiyası, xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması, peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması, təhsil müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin qurulması və inkişaf etdirilməsi ilə bağlı məsləhət və metodiki dəstək xidmətlərinin təşkil edilməsi və məktəb inspeksiyası layihəsi üzrə həyata keçirilən tədbirlər və görülən işlər barədə informativ və statistik məlumatlar qeyd olunub.

Qeyd edək ki, Agentlik Azərbaycanda və beynəlxalq səviyyədə qəbul edilmiş standartlara əsaslanan ali, orta ixtisas və əlavə təhsilin keyfiyyətinin müstəqil qiymətləndirilməsi sahəsində peşəkar və mütəxəssis qurumdur.

## 179 layihə qrant qazanıb

Təhsil Nazirliyi tərəfindən həyata keçirilən "Təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsi"nin nəticələri açıqlanıb.

Müsabiqəyə "Ümumi təhsil müəssisələri kateqoriya"sı üzrə 230, "Fərdi kateqoriya" üzrə 741 olmaqla, ümumilikdə 971 layihə təqdim edilib. Ekspert qrupunun qiymətləndirməsi əsasında "Ümumi təhsil kateqoriya"sı üzrə 47, "Fərdi kateqoriya üzrə" 132 layihə olmaqla ümumilikdə ən yüksək bal toplayan 179 layihə qrant qazanıb.

Müsabiqə nəticələrindən narazı qalan müraciətçilər 16 avqust 2021-ci il saat 18:00-dək *grants@edu.gov.az* elektron poçt ünvanına ad, soyad, əlaqə nömrəsi, təqdim etdikləri layihənin adı, kateqoriyası və nominasiyasını göndərərək apellyasiya müraciəti edə bilərlər.

Qeyd edək ki, avqustun 2-də "Təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsi"nin nəticələrinə həsr olunmuş vebinar keçirilib. Vebinar Təhsil Nazirliyinin rəsmi "Facebook" səhifəsi üzərindən izlənilib.

## UNEC SABAH qruplarından 95 məzun Avropanın aparıcı universitetlərində təhsil alacaq

2021-ci ildə UNEC SABAH qrupları məzunlarının magistraturaya qəbulunda yüksək nəticə əldə edilib.

Azərbaycan Dövlət İqtisad Universitetindən bildirilib ki, UNEC SABAH-dan məzun olan 216 bakalavrın 90 faizi magistraturaya daxil olub. Məzunlardan 94-ü yerli, 95-i isə ABŞ, İtaliya, Türkiyə, Macarıstan, Polşa, Slovakiya, Çexiya, Estoniya, Litva və digər ölkələrin aparıcı universitetlərində (California University of Pennsylvania, London South Bank Universiteti, Queen Mary University of London, Corvinus University, WSB university, Vytautas Magnus, Tartu University Quantitative Economics, Budapest University of Technology and Economics, Universita degli Studi di Milano və s.) magistratura təhsili almaq hüququ qazanıb.

Məzunların bir çoxu beynəlxalq təqaüd proqramının qalibi olaraq Avropanın aparıcı universitetlərində təhsil alacaqlar.

# Test imtahanları yekunlaşdı, vakansiya seçimi başladı




## Növbəti mərhələdə 11 fənn üzrə 16 mindən artıq namizəd 8 minə yaxın yer üçün rəqabət aparır

**2021-2022-ci tədris ili üçün müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanları mərhələsi başa çatıb. İyulun 5-dən etibarən start götürən test imtahanları mərhələsinə 59153 namizəd dəvət olunub. Dəvət olunanların 80 faizi imtahanlarda iştirak edib. Proses Bakı şəhəri ilə yanaşı, 11 müxtəlif şəhərdə, ümumilikdə 12 müxtəlif imtahan mərkəzində keçirilib. 21 gün ərzində bütün fənlər üzrə imtahanlar yekunlaşıb. İki fənn - Azərbaycan dili və ədəbiyyat və ibtidai sinif müəllimliyi üzrə ümumilikdə 5000-ə yaxın namizəd təkrar imtahan verib. Hazırda müsabiqədə növbəti mərhələyə - vakansiya seçimi mərhələsinə start verilib.**

### Təkrar imtahanlara mediatur

İmtahanların avqustun 4-nə təsadüf edən 21-ci, yəni sonuncu günü test imtahanlarının keçirildiyi Azərbaycan Texniki Universitetinin idman zalına mediatur təşkil edilib. Təhsil Nazirliyinin şöbə müdiri Eşqi Bağırov, Təhsil İnstitutunun direktoru Rüfət Əzizov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, tanınmış ictimaiyyət və KİV nümayəndələrinin iştirakı ilə baş tutan mediatur zamanı ibtidai sinif müəllimliyi üzrə təşkil edilmiş təkrar imtahanın gedişatı yaxından izlənilib.

Təhsil İnstitutunun İnsan Resursları Mərkəzinin direktoru Nurlan İsmayılbəyli jurnalistlərə bildirib ki, namizədlərin təkrar imtahanlarla bağlı istəkləri yerinə yetirilib: "Onlar qatıldıqları imtahanlarda test tapşırıqlarının daha çətin olduğunu əsaslandırırdılar. Təhsil naziri bu istəyə özünün feysbuk səhifəsində müsbət reaksiya verdi və rəhbərliyin tapşırığına müvafiq olaraq yenidən imtahan üçün proqram təminatına müvafiq düzəlişlər edildi".

Onun sözlərinə görə, ibtidai sinif və Azərbaycan dili və ədəbiyyat fənni üzrə təkrar imtahanlar üçün qeydiyyat 28-30 iyul tarixlərində həyata keçirilib və imtahanlarda yenidən iştirak üçün 4091 nəfər müraciət edib. Avqusrun 3-də Azərbaycan dili və ədəbiyyat, 4-də isə ibtidai sinif müəllimliyi üzrə təkrar imtahanlar keçirilib. Azərbaycan dili və ədəbiyyat müəllimliyi üzrə təkrar imtahanlarda 3 mindən artıq, ibtidai sinif müəllimliyi üzrə təkrar imtahanda isə 1000-dən artıq namizəd iştirak edib.

### Vakansiya seçimi davam edir

Artıq imtahanlar başa çatıb. Hazırda vakansiya seçimi davam edir. 8 minə yaxın vakant yerin çıxarıldığı bu mərhələdə imtahanları və apellyasiyası yekunlaşan namizədlər iştirak edir. Azərbaycan dili, alman dili, fizika, fiziki tərbiyə, fransız dili, kimya, informatika, riyaziyyat, rus dili və ədəbiyyatı, texnologiya və təsviri incəsənət fənləri üzrə test imtahanlarında iştirak edərək 30-dan artıq bal toplayan 16 mindən çox namizəd var. Bu hüququ qazanan ümumilikdə 11 fənn üzrə bütün namizədlər hazırda yer seçir. Qalan 8 fənn üzrə namizədlər də tezliklə apellyasiya mərhələsini başa çatdırıb vakansiya mərhələsinə qatıla biləcəklər.

### Səhv sual - bal üstünə bal əlavə olunub

Namizədlər imtahan verdiyi günün səhərisindən başlayaraq 2 gün ərzində apellyasiya şikayəti verə bilər. Bu il apellyasiya komissiyasına daxil olan müraciətlərin çoxu test imtahanında qoyulan suallar və verilən vaxtla bağlıdır. Həmin müraciətlər araşdırılıb və haqlı olanların nəticələrinə namizədlərin xeyrinə dəyişiklik edilib. Belə ki, səhv sual aşkarlanan seansda iştirak edən bütün namizədlərin balına bal əlavə olunub.

Xatırladaq ki, keçid balı 30 bal müəyyənləşdirilib. Vakansiya seçimi prosesi avqustun 6-sı saat 10:59-dək davam edəcək.

**Ruhiyyə DAŞSALAHLI**



Qarabağ gündəliyi

# Qalib MÜƏLLİM

## Ruslan Əhmədov: "Ermənilər itirdikləri mövqeləri geri almaq üçün uğursuz cəhdlər edirdilər"

Qarabağ uğrunda döyüşlərə qatılan daha bir müəllim - Ruslan Əhmədov. Şirvanda yaşayır, Salyanda işləyir. 3 ildir Salyandakı Təzəkənd ümumi orta məktəbində dərs deyir. Şagirdləri onu sevir, o da şagirdlərini. Özü bu sevgisinin millətinə, torpağına, dövlətinə bağlılığından irəli gəldiyini deyir. Ürəyindəki sevgini şagirdlərinə də aşılamağa çalışır. Vətən müharibəsinin iştirakçısı olaraq bunun daha da asanlaşacağına inanır. Hesab edir ki, Vətən müharibəsində iştirakı şagirdlərinin ona olan sevgi və hörmətini qat-qat artırıb. Axı, o da Vətən müharibəsi iştirakçısıdır və bu iştirakı ilə Vətəninə olan sevgisini təsdiq edib.

### VƏTƏN onu da çağırdı

Oktyabrın 10-dan aldığı çağırış əsasında heç tərəddüd etmədən əyninə hərbi geyim geyinib, əlinə silah götürüb: "Xüsusi təyinatlılar mövqeləri alıb irəliləyir, həmin mövqelərin müdafiəsi Milli Ordumuzun ayrı-ayrı batalyonlarına tapşırılırdı. Ağcabədi rayonunda, əsasən Laçından olan məcburi köçkünlərin məskunlaşdığı qəsəbə məktəbində yerləşən məntəqədə aparılan bölgüyə əsasən Qubadlının Sarıyataq kəndinin müdafiəsini təşkil edən qüvvələrin tərkibinə daxil edildim. PK atırdım müharibədə. Dekabrın 30-dək Qubadlının müdafiəsində iştirak etdim. İlk vaxtlarda ermənilər itirdikləri mövqeləri geri almaq üçün uğursuz cəhdlər edirdilər. Ancaq hər dəfə geri oturdulurdular. Bu cəhdlər elə uzun çəkmədi. Ordumuz irəlilədikcə cəbhə də, top-tüfəng səsi də Sarıyataqdan uzaqlaşdı".

Od-alov onların olduğu yerdən uzaqlaşsa da, ölüm yenə bir addımlıqlarında olub: "Erməni gülləsindən şəhid olan, yaralanan olmadı, ancaq aramızdan minaya düşənlər oldu".

Ruslan Əhmədov 2 ay 20 gündən sonra sağsalamat elinə-obasına, evinə-ailəsinə, ən əsası, məktəbinə, şagirdlərinin qarşısına qayıdıb. Özü də üzüağ, alnıaçıq.

Ruslan müəllim Vətən müharibəsində "PK" atıcısı olsa da, hərbi xidmət dövründə atıcı olub, manqa kamandiri kimi yetişib. Baş atıcı kimi fəaliyyət göstərən Ruslan Əhmədov Azərbaycan sülhməramlılarının tərkibində 6 ay Əfqanıstanda da xidmət edib. Azərbaycan sülhməramlı qüvvələrinin tərkibində göstərdiyi bu fəaliyyəti uğurla başa çatdıraraq Beynəlxalq Təhlükəsizlik Yardım Qüvvələrinin (İSAF) medalına layiq görülüb.

### İdmana olan həvəslə vətən sevgisi birləşəndə

Qeyd edək ki, 1991-ci il təvəllüdlü Ruslan Əhmədov Şirvanda Çılpaqlı qəsəbəsində doğulub. Burada 2 nömrəli tam orta məktəbin I sinfinə gedib. Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində təhsil alıb. 2018-ci ildə müəllimlərin işə qəbulu üzrə müsabiqəyə qatılıb və uğur qazanaraq Salyanda - Təzəkənd ümumi orta məktəbində fiziki tərbiyə fənni üzrə müəllim vəzifəsinə işə götürülüb. Həftədə 2-3 dəfə Salyana gedib-gəlir. Vətənə layiqli insanlar - mənəvi cəhətdən iradəli, fiziki cəhətdən güclü şəxsiyyətlər yetişdirmək üçün bütün bilik və bacarığını səfərbər edir. Bu məqsədə gedən yolda heç nə qarşısını kəsə bilməz. Buna isə idmana olan həvəslə Vətənə qarşı bəslənən sevgini birləşdirərək nail olacağını düşünür.

Yolun açıq, biləyin qüvvəli, sözün təsirli olsun, Azərbaycan müəllimi! Tərbiyə işinin təşkilində etdiyin hər fədakarlıq bəhrə versin!

**Ruhiyyə DAŞSALAHLI**





# Mingəçevir Dövlət Universitetini strateji hədəflərə yaxınlaşdıran modernləşmə yolu



**Şahin BAYRAMOV,**
*Mingəçevir Dövlət Universitetinin rektoru*

## 2020/2021-ci tədris ili: effektiv idarəetmə və səmərəli ali təhsil mühiti

(Əvvəli 23 iyul tarixli sayımızda)

### Səmərəli ali təhsil mühiti modelinin formalaşdırılması

Yeni dövrün universitetinə çevrilməyi hədəfləyən Mingəçevir Dövlət Universitetində (MDU) idarəetmədə çeviklik, şəffaflıq və ictimai hesabatlılığı, kadr potensialı və təhsilalanların hərtərəfli inkişafını, təhsil və sənaye işbirliyini, tələbəyönümlülüyü, çoxşaxəli və məhsuldar tələbə həyatını, kommunikasiya və cəmiyyətə fəal inteqrasiyanı, təhsilin məzmununda vətənpərvərlik tərbiyəsinin önəmini, faydalı xarici əməkdaşlığa açıqlığı, sağlam həyat və fəaliyyət şəraitini təmin edən səmərəli ali təhsil mühiti modelinin formalaşdırılması başlıca vəzifələrdən hesab olunur *(şəkil 1)*.

### Çevik idarəetmə, şəffaflıq və ictimai hesabatlılıq

Mövcud reallıqlar nəzərə alınmaqla, 2020/2021-ci tədris ilində universitet idarəçiliyində çevik, onlayn alətlərin və şəffaf mexanizmlərin geniş tətbiqinə mühüm diqqət göstərilmişdir. MDU-nun struktur bölmələri arasında koordinasiyanın gücləndirilməsi və onların fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində zəruri addımlar atılmışdır.

Hesabat dövründə tələbələrin universitet idarəçiliyinə daha aktiv qoşulmaları təmin edilmişdir. Cari tədris ilində tələbələr bərabərhüquqlu üzv statusunda MDU-nun Elmi Şurası və fakültə elmi şuralarında, eləcə də imtahan sessiyasının obyektiv, şəffaf, ədalətli və mütəşəkkil keçirilməsi məqsədilə yaradılmış İmtahan Qərargahı və Apellyasiya komissiyalarının tərkibində fəal təmsil olunmuşlar. Eyni zamanda, MDU-da “İmtahanlara dəstək qrupu”, “Texniki dəstək qrupu” və “Qaynar xətt”in fəaliyyət göstərməsi imtahan sessiyasında operativliyin təmin edilməsinə, yarana biləcək neqativ halların dərhal aradan qaldırılmasına xidmət etmşdir.

Universitet idarəçiliyində şəffaflığın artırılması və ictimai hesabatlılığın təmin edilməsi məqsədilə yaradılmış, Mingəçevir şəhərinin tanınmış və nüfuzlu ziyalılarının təmsil olunduğu MDU-nun İctimai Nəzarət Şurası tədrisin və imtahan sessiyasının təşkili, tələbə və valideynlərin müraciətlərinə baxılması prosesində, universitetlə şəhər ictimaiyyəti arasında kommunikasiyanın qurulmasında fəal iştirak etmişdir. Mütəmadi olaraq toplanan Şuranın 29 dekabr 2020-ci il və 13 iyul 2021-ci il tarixlərində keçirilən iclaslarında MDU-nun rektoru müvafiq olaraq 2020/2021-ci tədris ilinin payız və yaz semestrinin yekunları haqqında geniş hesabat məruzələri etmişdir.

Tələbə, magistrant, əməkdaş və valideynlərin arzu və təşəbbüslərini dinləmək, onları maraqlandıran sualları operativ cavablandırmaq məqsədilə cari tədris ilinin payız və yaz imtahan sessiyaları ərzində çevik onlayn kommunikasiya vasitələrindən biri kimi universitet rektorunun iştirakı ilə hər həftə “Açıq qapı” günlərinin keçirilməsi ənənəvi xarakter almışdır.

### Kadr potensialının və təhsilalanların hərtərəfli inkişafı

Pandemiya dövrünün çətinliklərinə baxmayaraq, MDU-da akademik və inzibati heyət üzvlərinin, təhsilalanların hərtərəfli inkişafının təmin edilməsi məqsədilə onların əlavə bilik və bacarıqlar qazanmasına imkan verən təlimlərin keçirilməsinə xüsusi diqqət yetirilmişdir.

*“Peşəkarla görüş” layihəsinin davam etdirilməsi*

Əsas məqsədi MDU kollektivinin müxtəlif aktual mövzular barədə peşəkarların bilik və bacarıqlarından faydalanması üçün imkanların yaradılmasından ibarət olan “Peşəkarla görüş” layihəsi çərçivəsində cari tədris ilində onlayn formatda üç görüş təşkil edilmişdir.

2020-ci ilin 24 dekabr tarixində “Tarixi Zəfər” adlı ilk görüşün qonağı 44 günlük Zəfər Yürüşünün iştirakçısı, Vətən müharibəsi Qəhrəmanı, mayor Elnur Şirinov, 2021-ci ilin 18 fevral tarixində “Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan ali təhsil müəssisələrinin rolu” adlı ikinci görüşün qonağı Milli Məclisin deputatı Ceyhun Məmmədov, 2021-ci ilin 12 aprel tarixində “Zəfərdən quruculuğa: Qarabağın iqtisadi potensialı və perspektivlər” adlı üçüncü görüşün qonağı isə Milli Məclisinin deputatı Vüqar Bayramov olmuşdur.

*Təhsildə innovasiya və sahibkarlıq yanaşmasının aşılanması*

Bu məqsədlə, 2021-ci ilin 24 fevral tarixində “Təhsildə İnnovativ Texnologiyalar” Əlavə Təhsil Mərkəzinin icraçı direktoru İsa Qasımov tərəfindən MDU-nun professor-müəllim heyəti üçün “Tədris prosesində innovasiya və sahibkarlıq yanaşmaları” mövzusunda təlim keçirilmişdir.

*Məsafədən təhsil ilə bağlı rəqəmsal bacarıqların artırılması*

Cari tədris ilində MDU-nun akademik, inzibati və texniki heyəti üzvləri, tələbə və magistrantları üçün “Microsoft Teams Proqramı və onun imkanları”, “Microsoft Teams” proqramında imtahan prosesinin təşkilində çat, faylların mübadiləsi, biletlərin idarə olunması və komandadan qruplara nəzarət” mövzusunda mütəmadi keçirilmiş təlimlər məsafədən təhsillə bağlı MDU əməkdaşlarının təcrübələrinin artırılmasına xidmət etmişdir.

*Tyutor institutunun gücləndirilməsi*

MDU-da kredit sistemi ilə tədrisin təşkilinin səmərəliliyinin yüksəldilməsi, tələbə və magistrantlara fəal akademik dəstəyin təmin edilməsi məqsədilə təhsil prosesinə cəlb olunan tyutorların bu sahədə bilik, bacarıq və səriştələrinin artırılmasına xüsusi əhəmiyyət verilmişdir. Bu məqsədlə 13-18 iyul 2021-ci il tarixlərində universitetdə ilk “Tyutor xidməti” təlim proqramı reallaşdırılmışdır.

*Rəqəmsal iqtisadiyyat sahəsində bilik və bacarıqların inkişafı*

2021-ci ilin 25 iyun tarixində MDU-nun nəzdində fəaliyyət göstərən “Seed” Startap Mərkəzinin təşkilatçılığı ilə “Fintech və rəqəmsal iqtisadiyyat” mövzusunda ABŞ-ın Şimali Dakota Dövlət Universitetinin maliyyə professoru Fariz Hüseynov tərəfindən universitetin tələbə və müəllim kollektivi üzvləri üçün onlayn təlim keçirilmişdir.

*Layihə idarəetmə bacarıqlarının ötürülməsi*

2021-ci ilin 23-25 aprel tarixlərində Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı və MDU Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə “Gəl layihə yazaq!” adlı üçgünlük onlayn təlim keçirilmişdir. Təlim gənclərdə layihə təklifləri hazırlamaq, problem, məqsəd və vəzifələri düzgün ifadə etmək, məqsədəuyğun hədəf qrupları seçmək və gözlənilən nəticələri konkret müəyyən etmək, tədbirlər planı, xərclər smetası hazırlamaq və müxtəlif hesabat formalarını düzgün tərtib etmək bacarıqlarının aşılanmasına hədəflənmişdir.

*Turizm sahəsi üzrə praktiki bilik və bacarıqların genişləndirilməsi*

2020-ci ilin noyabr-dekabr aylarında MDU-nun təşkilatçılığı, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin dəstəyi, Azərbaycan Turizm və Menecment Universitetinin, Mingəçevir Turizm Kollecinin tərəfdaşlığı ilə “Turizm sahəsi üzrə kadr hazırlığında yeni çağırışlar: təcrübə və karyera imkanları” mövzusunda birgə layihə reallaşdırılmışdır. MDU-da “Turizm və otelçilik” ixtisası üzrə kadr hazırlığı prosesinə töhfə məqsədilə sözügedən layihə çərçivəsində onlayn formatda təşkil edilən 4 modullu təlimlər respublikamızın turizm sənayesi sahəsində fəaliyyət göstərən təcrübəli mütəxəssisləri tərəfindən keçirilmişdir.

*Amerikalı professorun akademik fəaliyyətə dəstəyi*

ABŞ Dövlət Departamentinin maliyyələşdirdiyi “English Language Fellow” təqaüd proqramı çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən ingilis dili mütəxəssisi Richard Schlight hesabat dövründə MDU-da tədris prosesində fəal iştirak, bakalavriat səviyyəsində “Xarici dil müəllimliyi (ingilis dili üzrə)” ixtisası üzrə təhsil alan dördüncü kurs tələbələrinə “Xarici dildə oxu və nitq” fənnini tədris etmişdir.

*Marketinq ixtisası üzrə təhsilalanlara peşə dəyərlərinin aşılanması*

2021-ci ilin 20 fevral tarixində MDU-nun İqtisadiyyat və idarəetmə fakültəsində “Marketinq” ixtisası üzrə təhsil alan tələbələrə “Gələcəyin marketoloqları” adlı təlim keçirilmişdir. Təlimdə marketinq sahəsi üzrə uğur qazanmağın yolları, gələcəyin marketoloqu üçün zəruri olan əsas dəyərlər, bu sahə üzrə tələb olunan müasir bilik və bacarıqlar barədə ətraflı məlumat verilmişdir.

### “Universitet-peşə məktəbi-sənaye” üçtərəfli əməkdaşlıq formatı

Regional ekosistemin mühüm faktoruna çevrilməyi hədəfləyən MDU-da hesabat dövründə təhsil və sənaye işbirliyinin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilmişdir. 2021-ci ilin 10 iyun tarixində MDU, Mingəçevir Peşə Məktəbi və “Azmade Group” MMC şirkəti arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması ilə “universitet - peşə məktəbi - sənaye” üçtərəfli əməkdaşlıq formatının əsası qoyulmuşdur.

Qarşılıqlı maraq kəsb edən məsələlər üzrə ortaq layihələrin reallaşdırılmasını və üçtərəfli formatda digər birgə fəaliyyətlərin həyata keçirilməsini nəzərdə tutan Memorandum universitetdə kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, tədrisin məzmununun təkmilləşdirilməsi, nəticəyönümlü, səmərəli tədqiqatların inkişaf etdirilməsi və klasterləşmə baxımından mühüm əhəmiyyət kəsb edir.

Əməkdaşlıq çərçivəsində 2021-ci ilin 25 iyun tarixində işçi qaydada keçirilmiş ilk görüşdə tərəfdaş qurumların strateji hədəfləri və fəaliyyət istiqamətləri, əsas ehtiyacları, əməkdaşlıqdan başlıca gözləntiləri və digər məsələlər üzrə geniş fikir mübadiləsi aparılmış, üçtərəfli formatda birgə fəaliyyətə dair müvafiq təkliflər irəli sürülmüşdür.

*Zəyəm Texnologiyalar Parkı (ZTP) ilə əməkdaşlıq*

12 iyul 2021-ci il tarixində üçtərəfli əməkdaşlıq formatı çərçivəsində MDU və Mingəçevir Peşə Məktəbinin bir qrup akademik, inzibati və tələbə heyəti üzvü üçün Şəmkir şəhərində yerləşən və “Azmade Group” MMC-yə daxil olan ZTP-də infotur təşkil edilmişdir *(şəkil 2)*.

Bununla yanaşı, cari ilin avqust ayı ərzində MDU-nun 5 tələbəsi və Mingəçevir Peşə Məktəbinin 2 şagirdinin ZTP-də ödənişsiz əsaslarla təcrübə proqramında iştirak edə bilməsi üçün bütün lazımi şəraitin yaradılmasına və təcrübə müddətində təhsilalanların müvafiq qaydada əməyinin ödənilməsinə dair razılıq əldə edilmişdir.




Şəkil 1




Şəkil 2

### Çoxşaxəli tələbə həyatı və uğurlu nəticələr

MDU-da tələbəyönümlü məzmunun yaradılmasına, tələbə gənclərin hərtərəfli inkişafına, onların universitet idarəçiliyində fəal təmsil, çoxşaxəli könüllülük fəaliyyətinə cəlb olunmasına, Mingəçevir şəhərinin ictimai-siyasi həyatında aktiv iştirakına və tələbə təşkilatlarının fəaliyyətinin gücləndirilməsinə xüsusi diqqət yetirilir.

Sevindirici haldır ki, MDU-nun tələbə və magistrantları 44 günlük Vətən müharibəsi və ondan sonrakı dövrdə, COVID-19 pandemiyasına qarşı müvafiq sosial dəstək, təbliğat və maarifləndirmə işlərində, eləcə də əlamətdar günlərə və tarixi şəxsiyyətlərə həsr olunan tədbirlərin təşkilində, startap təlimlərinin keçirilməsində yüksək fəallıq nümayiş etdirmiş və uğurlu nəticələrə nail olmuşlar.

*Ümummilli Liderə həsr olunan müsabiqədə birincilik*

Mingəçevir Şəhər İcra Hakimiyyəti, YAP Mingəçevir şəhər təşkilatı və Mingəçevir Şəhər Təhsil Şöbəsinin birgə keçirdiyi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Əbədiləşən şəxsiyyət” adlı onlayn müsabiqədə şeir, musiqi və inşa nominasiyaları üzrə fəxri yerlərə MDU tələbələri layiq görülmüş və qaliblər müvafiq diplomlarla təltif edilmişlər.

*İlin Tələbə Gənclər Təşkilatı*

Nümunəvi fəaliyyətinə və xüsusi fəallığına görə 2021-ci ilin 1 fevral tarixində Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı tərəfindən MDU Tələbə Gənclər Təşkilatı “İlin Tələbə Gənclər Təşkilatı” adına layiq görülmüşdür.

*“Gələcəyin müəllimi” təqaüdü*

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsis edilmiş “Gələcəyin müəllimi” təqaüdünə cari tədris ilində layiq görülən tələbələr sırasında MDU-nun Pedaqoji fakültəsinə ən yüksək balla qəbul olan 4 tələbəsi də yer almışdır.

*“İlin könüllüsü” mükafatı*

MDU İqtisadiyyat və idarəetmə fakültəsinin birinci kurs tələbəsi Dağlar Babayev 5 dekabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Könüllü Təşkilatları İttifaqının birgə təşkilatçılığı ilə keçirilən “Qarabağ Azərbaycandır!” Azərbaycan Könüllülərinin III Həmrəylik Forumunda “Pandemiya dövründə könüllülük” kateqoriyası üzrə “İlin könüllüsü” mükafatı ilə təltif olunmuşdur.

*Həmkarlar İttifaqının adlı təqaüdü*

MDU-nun 2 tələbəsi imtahan sessiyasında əldə etdiyi yüksək nəticələrə və həmkarlar ittifaqı sahəsində göstərdiyi fəallığa görə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin adlı təqaüdünə layiq görülmüşdür.

### Tarixi Zəfər, yüksək vətənpərvərlik və həmrəylik ili

Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi və yenilməz Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində 2020-ci il Zəfər ili kimi xalqımızın tarixinin şanlı səhifələrinə qızıl hərflərlə əbədi həkk olunmuşdur. Otuz illik həsrətə son qoyan 44 günlük Vətən müharibəsində MDU-nun tələbə, məzun və əməkdaşları da həm ön cəbhədə döyüşlərdə, həm də arxa cəbhədə sosial və mənəvi dəstək tədbirlərində, informasiya mübarizəsində fəal iştirak etmiş və yüksək həmrəylik göstərmişlər.

Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüşlərdə MDU-nun 4 əməkdaşı, 120-dən çox tələbə və məzunu iştirak etmiş, 5 məzunu isə şəhidlik zirvəsinə ucalmışdır. Döyüş tapşırıqlarını şərəflə yerinə yetirmiş, mərdlik və igidlik göstərmiş qəhrəman tələbə və məzunlarımız ölkə başçısı tərəfindən medallarla təltif edilmişdir.

Elmi Şuranın müvafiq qərarları ilə MDU-nun hesabından Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna 15 min, “YAŞAT” Fonduna isə 10 min manat vəsait köçürülmüşdür. Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə iştirakçıları, onların yaxınları və müharibədən zərər çəkənlərlə bağlı ölkəmizdə həyata keçirilən sosial dəstək tədbirlərində MDU-nun “Pedaqogika və psixologiya” kafedrasının əməkdaşı fəal iştirak edərək 25-dən artıq şəhid ailəsi üzvlərinə sosial-psixoloji xidmət göstərmişdir.

### Vətənpərvərlik tərbiyəsinin önəminin yüksəldilməsi

Müasir bilik və bacarıqlar əldə etməsi ilə yanaşı, gənclərin xalqına, vətəninə və dövlətinə bağlı layiqli vətəndaş kimi yetişdirilməsini əsas vəzifələrindən biri kimi diqqət mərkəzində saxlayan MDU-da cari tədris ilində təhsilin məzmununda vətənpərvərlik tərbiyəsinin önəminin daha da yüksəldilməsi istiqamətində mühüm addımlar atılmışdır. MDU-da Vətən müharibəsinə və əldə edilən tarixi Zəfərə həsr olunan, qəhrəman şəhidlərimizin adlarının əbədiləşdirilməsinə, cəsur əsgər və zabitlərimizin göstərdikləri şücaət və vətənpərvərlik nümunələrinin tələbə gənclərə ötürülməsinə xidmət edən,tariximizin faciəvi və şanlı səhifələrinin, milli mənəvi dəyərlərin və adət-ənənələrin öyrənilməsinə və təbliğ edilməsinə hədəflənən müxtəlif formatlı çoxsaylı tədbirlər keçirilmişdir.

*Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzi (TVİM)*

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində həyata keçirilən işlərin çevik və səmərəli əlaqələndirilməsini təmin etmək məqsədilə MDU-da TVİM yaradılmışdır. Vətən müharibəsində şəhid olan MDU-nun məzunu Əzəmi Hüseynovun həyat yoldaşı Minayə Hüseynova Mərkəzin koordinatoru vəzifəsinə işə qəbul edilmişdir.

Fəaliyyət göstərdiyi üç ay müddətində TVİM-in təşkilatçılığı ilə müntəzəm olaraq universitetin şəhid məzunlarının ailələri ziyarət edilmiş, Şəhidlər Xiyabanında onların əziz xatirələri anılmış, qazi məzunlarla görüşlər keçirilmiş, Hərbi Qənimətlər Parkına ekskursiya təşkil edilmiş, şəhər və respublika miqyasında qəhrəmanlarımıza həsr olunmuş tədbirlərdə tələbə və əməkdaşların fəal iştirakı təmin edilmişdir.

Eyni zamanda, MDU-nun şəhid məzunlarının tanıdılması, onların gənclər üçün örnək olan həyat hekayələrinin, şərəfli döyüş yollarının işıqlandırılması və gələcək nəsillərə ötürülməsi məqsədilə TVİM tərəfindən “Azərbaycan müəllimi” qəzetinin “Şəhid məzunlar” rubrikasında silsilə yazılar dərc olunmuşdur.

### COVID-19 pandemiyasına qarşı mübarizə

Cari tədris ilində universitetdə və şəhər miqyasında həyata keçirilən koronavirus pandemiyasına qarşı mübarizədə, vaksinasiya prosesində və bunlarla bağlı müxtəlif təbliğati maarifləndirmə tədbirlərində MDU-nun professor-müəllim və tələbə heyəti üzvləri fəal iştirak etmişdir. MDU-da dəfələrlə tibbi-profilaktik və dezinfeksiya işləri aparılmış, universitet əməkdaşlarının 92 faizi vaksinasiyadan keçmişdir. Ənənəvi təhsilin bərpa olunmasını səbrsizliklə gözləyən tələbə və magistrantlar da bu prosesə aktiv qoşulmuşlar.

(ardı var)



# Uğur hekayəsindən başlanan yüksəliş yolu

## Valeriya Kovalyova: "Bal rəqslərinə həvəsim erkən yaşlarımda yaranıb"

**Nə az, nə çox, düz 11 ildir ki, Valeriya Kovalyova Bakıdakı 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzində rəqsin ən maraqlı və mürəkkəb növü olan bal rəqsinin sirlərinə dərindən yiyələnir. Özünün söylədiyinə görə o, rəqsin bütün növlərinin, demək olar ki, mahir ifaçısıdır, ancaq bal rəqsi lap uşaqlıq illərindən onun hobbisi olub. Televiziya kanallarında bal rəqsi ifa edən cütlükləri görən kimi o da öz kuklasını qucağına alıb və onlarla bərabər həmin rəqsi evdə ifa edib. Bunu görən valideynləri sevimli qızlarını mərkəzə gətiriblər və rəhbərlikdən xahiş ediblər ki, Valeriyanın istedad və bacarığını, məharətini nəzərdən keçirsinlər. Mərkəzin müəllimi Məryəm Quliyeva əvvəlcə Valeriya ilə rəqs barədə söhbət edib, nə üçün məhz rəqsin bu növünü seçdiyi ilə maraqlanıb. O, cavabında bildirib ki, rəqsin bütün növlərini sevir, xüsusilə milli rəqslərimizi, ancaq bal rəqsi onun vahid seçimidir. Təbii olaraq Məryəm müəllim həvəskar qızcığazı ruhlandıraraq bal rəqsinin üstün, eyni zamanda maraqlı cəhətləri barədə ətraflı məlumat verib və onu öz dərnəyinə üzv yazıb.**

Məryəm Quliyeva rəqsin bu növünü öz yetirməsinə daha böyük coşqu ilə sevdirməyə nail olub, həm də onu bu illər ərzində gərgin zəhmət bahasına mahir bal rəqsi ifaçısına çevirə bilib. Valeriyanın ötən bu illər ərzində qazandığı uğurların sayı artıq kifayət qədərdir. Mərkəzin qatıldığı elə rəqs müsabiqəsi olmayıb ki, Valeriya orada iştirak edənlər sırasında öncüllərdən olmasın və uğur qazanmasın.

Artıq mərkəzin fəxri üzvü statusunu qazanan rəqqasəyə, "Uğurların barədə oxucularımıza ən çox hansı məqamları çatdırmaq istərdin?" sualıma Valeriya belə cavab verdi: "Danışmağa utanıram. Müəllimimdən soruşun".

Məryəm müəllim bizim söhbətimizin iştirakçısı və öz yetirməsinin təvazökarlığına yaxından bələd olduğu üçün xoş bir təbəssüm nümayiş etdirdi, sonra isə, eyb etməz, mən danışaram, deyib, Valeriyanın bal rəqsi müsabiqələrində imza atdığı nailiyyətlər barədə yaddaşını vərəqləyib qısa da olsa əsas məqamları söyləyə bildi.

Müxtəlif vaxtlarda beynəlxalq yarışlara qatılaraq qələbə əldə edib. Belə ki,- Valeriya Gurcustanda keçirilən "World Open Tournament Batumi Open-2014" müsabiqəsində III, 2016-cı ildə İdman bal rəqsləri uzrə Bakı şəhər çempionatında I yerlərə layiq görülüb. Bolqarıstanda keçirilən festivalda istirak edərək fəxri fərmanla geri dönüb. 2018-ci ildə isə idman bal rəqsləri üzrə Azərbaycan Kubokunda I, "Olkə cempionatı-2019"-da II yerləri tutub. "Azərbaycan Fristayl Kuboku-2019" uğrunda Azərbaycan çempionatında I yerə, eyniadlı növbəti yarışmada gümüş medala layiq görülüb.

Valeriya Kovalyova Heydər Əliyev Fondunun "Buta Palace"da keçirdiyi bütün tədbirlərə dəvətli olur və hər dəfə də Mərkəzin kollektivinə sevinc bəxş edir. İstər ölkədaxili, istərsə də beynəlxalq rəqs yarışmalarında qazandığı nailiyyətlər isə onun uğur hekayəsinin əsasında dayanır və sənətin zirvəsinə doğru aparan yüksəliş yoluna işıq salır.

**Sifai SƏFƏROVA**


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 3999 **Sifariş** 1421

**Məsul növbətçi:** S.Kərimova


# Etibarsız sayılır

**Respublika Uşaq və Yeniyetmələr üçün Vərəm Sanatoriyasının nəzdindəki tam orta məktəbi** 2010-cu ildə bitirmiş Quliyev Teymur Oktay oğluna verilmiş B-745545 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2004-cü ildə Eminova Günel Bəylər qızına verilmiş A-123850 nömrəli fərqlənmə bakalavr diplomu və əlavəsi, 2006-cı ildə verilmiş MNB-008649 nömrəli fərqlənmə magistr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 182 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Məhərrəmova Cəmilə Telman qızına verilmiş B-485479 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Quşçular kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Abdullayeva Nuranə Zabit qızına verilmiş B-198020 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 18 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Orucəliyeva İlkanə Mürşüd qızına verilmiş A-691461 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** 2 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Kərimov Zaur İlham oğluna verilmiş A-663547 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 1998-ci ildə Sadıqov Cəmil Qəzənfər oğluna verilmiş AB-054502 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Poladlı kənd tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Əliyeva Elnurə Maarif qızına verilmiş B-407693 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2001-ci ildə Mirzəyeva (Çiftçi) Günel İlham qızına verilmiş A-093860 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 2 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Hüseyn İlyas Ağaşükür oğluna verilmiş A-031167 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2009-cu ildə Abdulov Əli Sakit oğluna verilmiş B-147779 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 45 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Quliyev Cahangir Bəhram oğluna verilmiş 007286 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Nəsibov Ağa Rasim oğluna verilmiş B-004761 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Novruzov Əfqan Novruz oğluna verilmiş A-656674 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** İsnovqışlaq kənd tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Əhmədova Nargilə Sədrəddin qızına verilmiş A-017046 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 245 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Əliyev Rauf Əli oğluna verilmiş A-507508 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli BPM** (indiki Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1987-ci ildə Ələsgərov Səfər Əli oğluna verilmiş 429991 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 13 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Tağızadə Murad Rəşad oğluna verilmiş E-263172 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin** (keçmiş Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialı) tərəfindən 2002-ci ildə Əliyeva Xatirə Darvin qızına verilmiş YB-007584 nömrəli Yenidənhazırlanma diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 187 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Quliyeva Gülnarə Eldar qızına verilmiş A-588495 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 1999-cu ildə Nametov Ruslan Adil oğluna verilmiş A-043553 nömrəli bakalavr diplomu və A-0195 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Qoşabulaq kənd 2 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Sadıqov Laçın Valis oğluna verilmiş 585992 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər** 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Hüseynova Gülnar Hüsən qızına verilmiş A-046693 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Məlikli kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Umudova (İslamova) Elnarə Fərman qızına verilmiş B-235633 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Məlikli kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Cəbiyev Dəyanət Tofiq oğluna verilmiş A-040412 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 166 nömrəli məktəb-liseyi 1998-ci ildə bitirmiş Quliyeva Mehriban Nəbi qızına verilmiş A-157449 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi** (keçmiş Dövlət Dəmir Yolu Liseyi) tərəfindən 2019-cu ildə Bayramov Tural Akif oğluna verilmiş A-123605 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 8 nömrəli beynəlmiləl tam orta məktəbi 1990-cı ildə bitirmiş Qədirova (Hüseynova) Arzu Niyazi qızına verilmiş A-014605 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** tərəfindən 1998-ci ildə Səmədova Nərminə Əliağa qızına verilmiş AB-II-036793 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Peşə Təhsil Mərkəzi tərəfindən 1984-cü ildə Mustafayev Əzizağa Fərhad oğluna verilmiş Д-460533 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 8 nömrəli məktəb-liseyin IX sinfini 1993-cü ildə bitirmiş Musayeva Könül Qərib qızına verilmiş 059285 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Yeni Uluxanlı kənd tam orta məktəbi (keçmiş Aydıngün) 1983-cü ildə bitirmiş Əzizov İlham Qaraxan oğluna verilmiş 802256 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# Biz torpaqlarımıza qayıtdıq!

**İyulun 31-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” və Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində dünyanın nüfuzlu ali təhsil müəssisələrində təhsil almış bir qrup məzunun işğaldan azad edilmiş Ağdam rayonuna səfəri təşkil olunub. Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov regiona səfər edən tələbələri və Təhsil Nazirliyinin əməkdaşlarını qarşılayaraq qeyd edib ki, Azərbaycan dövlətinin gücünü əks etdirən xaricdə təhsil proqramının məzunları bizim gələcəyimizin, gələcək Azərbaycanın, daha güclü Azərbaycanın təcəssümüdür. Ona görə bu gün torpaqlarımızı işğaldan azad etmiş Müzəffər Azərbaycan Ordusunun gəncləri kimi elmi ilə, təhsili ilə Azərbaycanın inkişafına töhfə verəcək gənclər olaraq siz də bu ölkənin güclü bir dövlət olmasının təməl sütunlarından birisiniz. “Əminəm ki, dövlətin**



**sizə qoyduğu sərmayəni artıqlaması ilə bu torpağa, dövlətə, bu xalqa qaytaracaqsınız. İşğaldan azad olunmuş doğma Ağdamımıza xoş gəldiniz. Mənim üçün həm də ikiqat əlamətdar hadisədir. Ona görə ki, xaricdə təhsil üzrə Dövlət Proqramının ilk məzunlarından biriyəm. Bu gün şəxsən sizi burada qarşılamağı və bu səfəri sizinlə bir yerdə keçirməyi özümə borc bildim”.**

**Daha sonra Ağdam rayonunda Pənahəli xanın imarəti, İmarət stadionu, Ağdam Cümə və Qiyaslı məscidləri və Ağdam Dövlət Dram Teatrına ziyarət təşkil edilib. Məzunlar tərəfindən Ağdam Dövlət Dram Teatrı qarşısında milli folklor nümunələrindən “Sarı gəlin”, “Heyratı Azərbaycan”, eyni zamanda, Niyazinin “Rast” simfonik muğamından fraqment, “Vivaldi-summer” ifa olunub. Səfər zamanı Ağdamın Baş Planı ilə tanışlıq olub. Ağdam səfərinin iştirakçıları “Azərbaycan müəllimi”nə öz təəssüratlarını bölüşüblər.**

## Dövlət Proqramı məzunları erməni vəhşiliyinin izi ilə Ağdamda olublar



Tural Əhmədov



Samirə Həsənzadə



Aygün Mehrəliyeva



Ceyla Seyidova



Niftalı Qasımlı



Orxan Kərimzadə



Sevinc Novruzova



Ülfət Hacıyev

### “İstədik ki, gənclər öz gözləri ilə bu prosesin şahidi olsunlar”

*Tural Əhmədov, Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri:* – Bu gün şahidi olduğunuz səfər “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” və Hökumətlərarası Təqaüd Proqramının məzunlarının işğaldan azad olunmuş Ağdam şəhərinə səfəridir. Təhsil Nazirliyi olaraq biz vətəndaşlarımızın xarici ölkələrdə, eyni zamanda, əcnəbilərin ölkəmizdə təhsilini təşkil edirik. Bu mənada iyun ayında əcnəbi tələbələrin işğaldan azad olunmuş Fizuli və Cəbrayıl rayonlarına səfərinin davamı olaraq gənclərimizin Ağdama səfərini təşkil etdik. Buradakı gənclər dünyanın ən nüfuzlu universitetlərindən müxtəlif ixtisaslar, təhsil səviyyələri üzrə məzun olmuş və hazırda cəmiyyətdə öz yerini tutan, dövlət, özəl, eyni zamanda beynəlxalq təşkilatlarda işləyən vətəndaşlarımızdır. Biz istədik ki, onlar öz gözləri ilə bu prosesin şahidi olsunlar. Eyni zamanda quruculuq işləri ilə bağlı ixtisaslaşdıqları sahələr üzrə öz tövsiyələrini versinlər.

### “Doğma torpaqlarımızdayıq”

*Samirə Həsənzadə, Dövlət Proqramı məzunu:* – Buraya gəlməyimizə görə Təhsil Nazirliyinə minnətdarlığımı bildirmək istərdim. Ağdama gəldiyimiz ilk saatlardan müxtəlif təəssüratlarımız var, doğma torpaqlarımızdayıq. Düşməndən azad olunmuş Ağdamı ilk dəfədir ki, görürük. Amma bir qədər də kədərli, çox həyəcanlı hisslər keçiririk. Erməni vəhşiliyini görəndən sonra insanın nə qədər vandal ola biləcəyi, yəni vəhşiliyin hansı həddə olduğunu düşünmək belə çox çətin gəlir insana. Bizim mədəni abidələrimizi, hər şeyi məhv etmək bir insan üçün nə qədər asan gələ bilərmiş. İnşallah ki, gələcəkdə bütün bunları bərpa edərik. Dünyaya da səsimizi çatdıraq və göstərək ki, bizim düşmənimiz necə hiyləgər və vəhşi bir düşməndir ki, tarixi, mədəni bir şəhəri bu günə sala bilib.

### “Özümü çox xoşbəxt hiss edirəm!”

*Aygün Mehrəliyeva, Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin əməkdaşı:* – Burada olmaqdan özümü çox xoşbəxt hiss edirəm. Özüm də ağdamlıyam. Atam I Qarabağ müharibəsində şəhid olub. Düşməndən azad olunmuş torpaqlarda olmaq çox qürurvericidir, çox həyəcanlıyam. Gec də olsa, haqq-ədalət öz yerini tapdı. Biz torpaqlarımıza qayıtdıq! Müzəffər Ali Baş Komandanımıza çox minnətdaram. Bu torpaqlar uğrunda can vermiş bütün şəhidlərə Allahdan rəhmət diləyirəm.

### “Keçirdiyim hissləri sözlə ifadə etmək mümkün deyil”

*Ceyla Seyidova, Dövlət Proqramı məzunu:* – Otuz ildən sonra düşməndən azad olunmuş torpaqlarımızda ilk musiqi ifaçısı olmağın sevincini yaşadım. Ona görə ki, Ağdam Dövlət Dram Teatrı qarşısında 3 musiqi əsərini – Niyazinin “Rast” simfonik muğamından fraqmentini, xalq mahnısı “Sarı gəlin”i və Vivaldinin üçüncü hissə konsertini ifa etdim. Bu gün burada keçirdiyim hissləri sözlə ifadə etmək mümkün deyil. Biz çox xoşbəxt anlar yaşayırıq. Ali Baş Komandanımıza, möhtərəm Prezidentimizə buradakı gənclər adından təşəkkürlərimi çatdırmaq istərdim. Çox sağ olsun ki, biz bu günləri gördük və bu günləri yaşayırıq.

### “Şərəfli günlərin canlı şahidləriyik”

*Niftalı Qasımlı, Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin mütəxəssisi:* – Bu gün bizim üçün həqiqətən də çox qürurverici, tarixi bir gündür. Bu gün biz erməni vandallarının viran qoyduğu Ağdam şəhərinə səfər etmişik və buradakı tarixi abidələrlə tanış oluruq. Həqiqətən də çox acınacaqlı bir mənzərə ilə üzləşmişik. Əminik ki, dövlətimizin uğurlu siyasəti nəticəsində bu torpaqlar tez bir zamanda bərpa olunacaq.

Əlavə edim ki, mən özüm 44 günlük Vətən müharibəsinin iştirakçısıyam. Könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etmişəm. Sentyabrın 29-dan döyüşlərə cəlb olunmuşam. Fizuli, Cəbrayıl, Zəngilan rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişəm. Cənab Prezidentin müvafiq sərəncamları ilə “Cəbrayılın azad olunmasına görə” və “Zəngilanın azad olunmasına görə” medallarla təltif olunmuşam. Həqiqətən çox qürurvericidir ki, illər sonra ordumuzun və xalqımızın birliyi nəticəsində, dövlət başçımızın qətiyyətli, əzmkar siyasəti sayəsində biz bu şərəfli günlərin canlı şahidləriyik.

### “Hər birimizin ürəyi Vətənlə döyünürdü”

*Orxan Kərimzadə, Dövlət Proqramı təqaüdçüsü:* – Təhsil Nazirliyinin xaricdə təhsil almış Dövlət Proqramı məzunlarının Ağdama təşkil etdiyi bu səfəri bizim üçün çox əhəmiyyətli və dəyərlidir. Biz bu təşəbbüsə görə Təhsil Nazirliyinə və digər təşkilatçılara minnətdarlığımızı bildiririk. 44 günlük müharibədə xaricdə yaşayan tələbələr olaraq hər birimizin ürəyi Vətənlə döyünürdü. Təbii ki, bu müharibədə qalib gəlmək heç də asan başa gəlməyib, şəhidlər vermişik. Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik. Qazilərimizə cansağlığı arzulayırıq ki, onlar bizə bugünkü hissləri yaşadıblar. Bu torpaqlarda yaşadığımız hissləri sözlə ifadə etmək mümkün deyil. Burada gördüyümüz hər bir abidəni, şəhərin hər bir hissəsini həmişə şəkillərdə, videolarda görmüşük. Amma bu gün bütün bunları real olaraq görürük. Ümid edirik ki, çox qısa zamanda bütün abidələr, Ağdam şəhəri və digər işğaldan azad olunmuş ərazilər bərpa olunacaq. Yenidənqurma işləri, gördüyümüz kimi sürətlə davam etdirilir və ən qısa zamanda ümid edirik ki, biz buraya yenidən qayıdacağıq. Bərpa olunmuş və yenidən qurulmuş Ağdam şəhərinə və digər ətraf rayonlara səfərlər edə biləcəyik.

### “Erməni vəhşiliyini bir daha öz gözlərimizlə gördük”

*Sevinc Novruzova, Hökumətlərarası Təqaüd Proqramının (HTP) məzunu:* – Çox qürurlu və sevincli bir gündür ki, Təhsil Nazirliyinin xətti ilə HTP məzunu olaraq Ağdam şəhərinə səfərdə iştirak edirəm. Eyni zamanda bu dağıntıları görmək çox üzücüdür. Yəni biz erməni vəhşiliyini bir daha öz gözlərimizlə gəlib burada görürük. İnsana xas olmayan nə qədər vəhşiliklər varsa onlar öz əməlləri ilə burada nümayiş etdiriblər. Bütün gördüklərimiz ermənilərə qarşı növbəti mübarizələrimizdə material olacaq. Ermənilər burada Azərbaycana aid tarixi, mədəni, dini abidələri, insanların şəxsi mülkiyyətini dağıdıblar. Dağıntılar ekspertizadan keçdikdən, bunlara hüquqi qiymət veriləndən sonra Azərbaycan vətəndaşı olaraq biz məzunlar üzərimizə düşən öhdəliyi, vəzifəni yerinə yetirərək, ilk növbədə, bu materialları bütün dünya ölkələrinə yaymalıyıq. Təsdiqedici materiallardan şəxsən mən iştirak etdiyim bütün tədbirlərdə erməni vəhşiliyi ifşa etmək üçün istifadə edəcəyəm.

### “Ağdamlı olaraq mənim üçün xüsusi önəm daşıyan bir gündür”

*Ülfət Hacıyev, Dövlət Proqramı təqaüdçüsü:* – Bu gün biz Ağdam şəhərindəyik. Ağdamlı olaraq mənim üçün xüsusi önəm daşıyan bir gündür. Mən Ağdamın Baş Qarvənd kəndində anadan olmuşam, Dövlət Proqramı üzrə Belçika Krallığında təhsil almışam. Bu gün Prezidentin Ağdam şəhəri üzrə xüsusi nümayəndəsi bizi qarşıladı, Ağdamın tarixi, burada görüləcək işlərlə bağlı tanış etdi. Bu, biz məzunlar üçün çox əhəmiyyətli səfər oldu. Bunun üçün Təhsil Nazirliyinə, nazirliyin Beynəlxalq əməkdaşlıq şöbəsinə minnətdarlığımı bildirirəm.

**Oruc MUSTAFAYEV**